**Qəhvəyi mərmər bağacığına qarşı mübarizə tədbirləri çərçivəsində bölgələrdə həyata keçirilən monitorinqlərə dair məlumat**

**(7 aprel 2023)**

Agentliyin fitosanitar müfəttişləri tərəfindən Ağdam, Bərdə və Tərtər rayonlarında yerləşən müxtəlif meyvə bağlarında (şaftalı, nektarin, armud və s.) monitorinqlər aparılıb. Monitorinq zamanı qəhvəyi mərmər bağacığının aşkarlanması məqsədilə feromon tələlər asılıb. Eyni zamanda yerli əhaliyə zərərvericinin vurduğu ziyanlar haqqında ətraflı məlumat verilib, həmçinin maarifləndirici buklet və broşürlər paylanıb, çap materialları müvafiq yerlərə yapışdırılıb.

Qeyd edək ki, qəhvəyi mərmər bağacığı 300-dən çox bitki ilə qidalanaraq onların məhsuldarlığını əhəmiyyətli dərəcədə aşağı salır. Əhalidən zərərvericilərlə mübarizədə fəal və diqqətli olmaları, müvafiq tədbirlər həyata keçirmələri xahiş olunur. Regional Əlaqələndirmə Mərkəzlərinin “Qaynar Xətti”nə zəng vuraraq, qəhvəyi mərmər bağacığına qarşı mübarizə tədbirləri barədə məlumat əldə edə bilərlər.

Əlaqə üçün: (+994 99) 708 85 88 (Qərb rayonları üzrə)

(+994 99) 308 85 88 (Şimal qərb rayonları üzrə)